| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL302 Müasir Azərbaycan dili- 4 (Sintaksis), 3 kredit, 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | f.ü.f.d., dos. Rasim Heydərov | |
| | **E-mail:** | *dr.rasimheydarov@mail.ru* | |
| | **Telefon:** | | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Məsləhət saatları** | Bazar ertəsi, saat 10.00-12.00 | |
| **Prerekvizitlər** | | | |
| **Tədris dili** | **Azərbaycan dili** | | |
| **Fənninnövü (məcburi, seçmə)** | **Məcburi** | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br>1. Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007.<br>2. B. Xəlilov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Adiloğlu, 2017.<br>3. Ə. Abdullayev, Y. Seyidov, A. Həsənov. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Bakı: Şərq - Qərb, 2007<br>4. Kazımov Q. Azərbaycan dilinin qrammatikası. Bakı: Elm və təhsil, 2023<br><br>**Əlavə ədəbiyyat:**<br>1. A.Əhmədova. Azərbaycan dilindən praktikum. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2019.<br>2. G.Abdullayeva. Müasir Azərbaycan dili. II hissə (Morfologiya, sintaksis) Bakı: Elm və təhsil, 2013.<br>3. Q. Kazımov. Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi. Bakı: Nurlan, 2010.<br>4. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Bakı, Azərnəşr, 2002 | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Fəallıq | | 5 |
| | Davamiyyət | | 5 |
| | Quizlər | | 5+5 |
| | **Aralıq imtahanı** | | **30** |
| | Praktik tapşırıqlar | | 5+5 |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Kursda müasir Azərbaycan dilinin sintaksisi, söz birləşmələri və onların növləri haqqında məlumat verilir, cümlənin məqsəd və intonasiyaya görə növlərindən, cümlə üzvlərindən, həmcins üzvlər və əlavələrdən bəhs olunur, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər, sadə cümlənin şəxsə görə növləri, mürəkkəb cümlə və növləri, vasitəsiz və vasitəli nitq şərh olunur. | | |

| | |
|---|---|
| **Kursun məqsədləri** | Kursun tədrisində əsas məqsəd Azərbaycan dilinin sintaktik quruluşu haqqında tələbələrə elmi-nəzəri bilik vermək, tələbələrin lüğət ehtiyatını zənginləşdirmək və onlarda bu dilə maraq hissi oyatmaqdır. Kursun məqsədi həm də Azərbaycan dilinin sintaktik quruluşunu daha yaxşı öyrətmək, cümlənin sadəcə sözlər yığını deyil, riyazi dəqiqliklə qurulmuş bir struktur olduğunu mənimsətmək, Sözlərin cümlədəki statusunu (mübtəda, xəbər və s.) müəyyən edən qanunauyğunluqların elmi əsaslarını öyrətmək, müasir Azərbaycan dilində baş verən sintaktik dəyişiklikləri və norma daxilindəki variantlılığı təhlil etməkdir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | 1. Tələbələr müasir Azərbaycan ədəbi dilinin sintaksisini mükəmməl mənimsəyəcək;<br>2. Cümlənin məqsəd və intonasiyaya görə növlərini, cümlə üzvlərini müəyyənləşdirəcək;<br>3. Həmcins üzvlərin, əlavələrin, sadə cümlənin şəxsə görə növlərinin, mürəkkəb cümlənin növlərinin, vasitəsiz və vasitəli nitqin özünəməxsus xüsusiyyətlərini elmi şəkildə öyrənəcək;<br>4. Düzgün sintaktik analizlər aparacaq, yazılı nitq bacarıqlarını təkmilləşdirəcək;<br>5. Yazı prosesində durğu işarələrindən yerli-yerində istifadə etməyi bacaracaqlar. |
| **Qiymətləndirmə meyarları (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Semestr boyunca qeydiyyat aparılaraq final imtahanından əvvəl bal yazılacaqdır. Dərsə gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq tələbə dərs saatına buraxılır. Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzrsüz buraxılan hər dərs üçün 0,5 bal çıxılacaq.<br><br>**Fəallıq**<br>Fəallığa görə veriləcək bal tələbənin müzakirələrdə iştirakına, semestr boyu həftəlik dərs proqramına hazırlaşmalarına, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə veriləcəkdir. Dərsdə fəallıq, sual – cavab və qrup işlərində fəallığa görə isə 5 bal nəzərdə tutulur.<br><br>**Quiz**<br>Dərsin 5-ci və 12-ci həftəsində "quiz" keçiriləcək və 5 balla qiymətləndiriləcək. "Quiz" üçün suallar keçirilən dərslər əsasında hazırlanacaq.<br><br>**Tapşırıq**<br>Keçilən hər mövzu ilə bağlı müasir Azərbaycan ədəbiyyatından nümunələr seçilməlidir. Həmin nümunələr sintaktik təhlil edilir. Nümunələr 5 bal üzərindən qiymətləndirilir. Tələbələr eyni zamanda KİV-də sintaktik norma pozuntusu ilə bağlı nümunələr seçməlidirlər. Seçilən nümunələr 5 bal üzərindən qiymətləndirilir.<br><br>**İmtahan haqqında**<br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və final imtahanlarının hər ikisində suallar test və ya açıq ola bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix (planlaşdırılmış) | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | | Sintaksis haqqında ümumi məlumat. Sintaktik əlaqələr. Tabesizlik və tabelilik əlaqələri.<br><br>Sözlər arasında tabelilik əlaqəsinin ifadə formaları: uzlaşma, idarə, yanaşma | Q. Kazımov. Müasir Azərbaycan dili, 3-34;<br><br>B.Xəlilov. Müasir Azərbaycan dili, 3-25<br>Ramiz Rövşənin şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 2. | | Azərbaycan dilində söz birləşmələri. Əsas tərəfin nitq hissələri ilə ifadəsinə görə söz birləşmələrinin növləri. İsmi birləşmələr.<br><br>Feili birləşmələr. Zərf birləşmələri. | Q. Kazımov. 35-55, 55-76;<br>B.Xəlilov. 26- 48, 49- 63<br>Vahid Əzizin şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 3. | | Cümlə. Cümlənin məqsəd və intonasiyaya görə növləri .<br><br>Cümlə üzvləri. Baş üzvlər. Mübtəda, ifadə vasitələri | Q. Kazımov. 77-99, 100- 110;<br>B.Xəlilov. 64-88, 89-107<br>Anarın əsərlərindən seçilmiş nümunələr üzərində iş |
| 4. | | Xəbər. İfadə vasitələrinə görə xəbərin növləri.<br><br>Cümlənin ikinci dərəcəli üzvləri. Tamamlıq. Tamamlığın ifadə vasitələri və növləri | Q. Kazımov. 110-117, 117-129;<br>B.Xəlilov. 108-118, 119-132<br>Nəriman Həsənzadənin şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 5. | | Təyin. Təyinin ifadə vasitələri.<br><br>Zərflik. Zərfliyin məna növləri (tərzi-hərəkət, zaman, yer, səbəb, məqsəd) | Q. Kazımov., 129-134, 135- 149;<br>B.Xəlilov. 133-140, 141-153<br>Müasir Azərbaycan ədəbiyyatından seçilmiş nümunələr üzərində iş |
| 6. | | Zərfliyin məna növləri (miqdar, dərəcə, şərt, qarşılaşdırma)<br><br>Əlavələr. Cümlə üzvlərinin əlavəsi | Q. Kazımov. 149-152, 156-162;<br>B.Xəlilov. 153-160<br><br>Ramiz Rövşənin şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 7. | | Cüttərkibli və təktərkibli cümlələr<br><br>**Aralıq imtahanı** | Q. Kazımov. 171-195; B.Xəlilov. 184-201<br>Baba Vəziroğlunun şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 8. | | Bütöv və yarımçıq cümlələr. Üzvlənməyən cümlələr.<br><br>Söz-cümlə. Söz-cümlənin məna növləri | Q. Kazımov., 195-211; B.Xəlilov. 201-226<br>Aqşin Yeniseyin şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 9. | | Sadə cümləmi genişləndirən vasitələr. Həmcins üzvlü cümlələr. | Q. Kazımov. 211-228, 244-251;<br>B.Xəlilov. 227-240<br><br>Anarın əsərlərindən seçilmiş nümunələr üzərində iş |

| | | | |
|---|---|---|---|
| | | Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və birləşmələr. Xitab | |
| 10. | | Cümlənin ara və əlavə konstruksiyalarla genişlənməsi. Ara sözlər. Əlavə cümlələr<br><br>Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqələri | Q. Kazımov. 251-279; 280-300<br>B.Xəlilov. 241-268<br><br>Elçinin əsərlərindən seçilmiş nümunələr üzərində iş |
| 11. | | Tabeli mürəkkəb cümlələr. Tabeli mürəkkəb cümlənin budaq cümlələrə görə təsnifi.<br><br>Mübtəda budaq cümləsi. Xəbər budaq cümləsi | Q. Kazımov. 301-343; B.Xəlilov. 269-286, 287-292<br>Kamal Abdullanın əsərlərindən seçilmiş nümunələr üzərində iş |
| 12. | | Tamamlıq budaq cümləsi<br><br>Təyin budaq cümləsi | Q. Kazımov. 343-351, 351-356; B.Xəlilov. 293-301, 302-307<br>Afaq Məsudun əsərlərindən seçilmiş nümunələr üzərində iş |
| 13. | | Zərflik budaq cümlələri: tərzi-hərəkət, dərəcə, zaman budaq cümlələri<br>Yer, kəmiyyət, səbəb, məqsəd budaq cümlələri | Q. Kazımov. 357-386; B.Xəlilov. 308-336<br><br>Zəlimxan Yaqubun şeirlərindən seçilmiş nümunələr üzərində iş |
| 14. | | Şərt, qarşılaşdırma, nəticə budaq cümlələri<br><br>Qoşulma budaq cümləsi | Q. Kazımov. 387-409; B.Xəlilov. 336-361<br><br>Anarın əsərlərindən seçilmiş nümunələr üzərində iş |
| 15. | | Müasir Azərbaycan ədəbi dilində cümlə üzvlərinin sırası. Vasitəli və vasitəsiz nitq<br><br>Durğu işarələri | Q. Kazımov. 163-170, 468-481; B.Xəlilov. 372-381, 391-397<br>Çalışmalar<br>Q. Kazımov. 482-489; B.Xəlilov. 398-412<br><br>Elçinin əsərlərindən seçilmiş nümunələr üzərində iş |
| | | **Final imtahanı** | |